# Azərbaycanla Gürcüstanı möhkəm bağlar birləşdirir

*Azərbaycanda səfərdə olan Gürcüstan parlamentinin Gürcüstan-Azərbaycan parlamentlərarası işçi qrupunun üzvləri dünən Milli Məclisdə olublar.*

Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərovla keçirilən görüşdə iki ölkə arasında mövcud olan tarixi münasibətlər və bugünkü siyasi-iqtisadi əlaqələr müzakirə mövzusu olub.

Qeyd edilib ki, Azərbaycanla Gürcüstan arasında xüsusi münasibətlər var. Azərbaycanla Gürcüstan strateji tərəfdaşdır və bu münasibətlər yetərincə qorunur. Parlamentlərarası əlaqələrin genişləndirilməsinə böyük ehtiyac var. Əlaqələr, qarşılıqlı səfərlər intensivləşməlidir. Əgər parlamentlərarası münasibətlər daha möhkəm olarsa, istənilən məsələdə müsbət nəticələr əldə əldə etmək olar: "Azərbaycan və Gürcüstanın həyata keçirdiyi birgə layihələr hər iki ölkənin əhəmiyyətini, çəkisini artırır. Bu gün dünyada gedən xoşagəlməz proseslər fonunda Azərbaycanla Gürcüstanın bir yerdə olması çox vacibdir. Biz bütün çağırışlara hazır olmalıyıq. Çünki bu gün beynəlxalq hüququn norma və prinsipləri, demək olar ki, işləmir" - deyə Ziyafət Əsgərov bildirib.

Gürcüstan parlamentinin sədr müavini, Gürcüstan-Azərbaycan parlamentlərarası işçi qrupunun sədri Zviad Dzidziquri isə parlamentlərarası münasibətlərin yüksək səviyyədə olduğunu söyləyərək əlaqələrin daha da fəallaşdırılmasının vacibliyini vurğuladı. Qeyd etdi ki, Gürcüstanla Azərbaycanı birləşdirən ümumi dəyərlər var: "Hesab edirəm ki, biz bir-birimizə dəstək olaraq bütün məsələləri həll edə bilərik. Müxtəlif layihələrdə birlikdə iştirak edirik və bu da bizə böyük dvidendlər qazandırır".

O vurğuladı ki, xalqlar arasındakı dostluq əlaqələri ulu öndər Heydər Əliyevlə Eduard Şevardnadze tərəfindən qurulub. Bu gün Prezident İlham Əliyev dostluq münasibətlərini daha da möhkəmləndirir.

İki ölkə arasındakı əlaqələrin getdikcə daha da gücləndiyini deyən Ziyafət Əsgərov bildirdi ki, 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu təkcə iqtisadi məsələ deyil, həm də dostluq körpüsüdür. Birlikdə reallaşdırılan layihələr iki ölkənin iqtisadi cəhətdən möhkəmlənməsinə mühüm töhfələr verəcək.

* * *

"Azərbaycan və Gürcüstan qədim qonşu ölkədir. Aramızda elə bir problem olmayıb ki, biz onu həll edə bilməyək. Dövlət başçılarının müxtəlif vaxtlarda həyata keçirdikləri qarşılıqlı səfərlər, aparılan danışıqlar əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib".

Bunu isə Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov işçi qrupları arasında keçirilən görüşdə söyləyib. Əflatun Amaşov ötən il işçi qrupunun üzvlərinin Gürcüstanda səfərdə olduğunu, bu ölkənin parlamentində görüşlər keçirdiyini söyləyərək bildirib ki, həmin səfər münasibətlərin daha da gücləndirilməsinə xidmət edib.

Azərbaycan-Gürcüstan əlaqələrinin tarixindən danışan Əflatun Amaşov qeyd edib ki, iki xalq arasında möhkəm bağlar mövcuddur. Dövlətlərarası münasibətlər isə hər zaman yüksək səviyyədə olub. Azərbaycan və Gürcüstan BMT, Avropa Şurası, ATƏT və digər təşkilatlarda ərazi bütövlüyü, eləcə də digər məsələlərdə hər zaman bir-birini dəstəkləyir. Lakin bu münasibətləri gözü götürməyənlər var.

Gürcüstan parlamentinin sədr müavini, Gürcüstan-Azərbaycan parlamentlərarası işçi qrupunun sədri Zviad Dzidziquri isə səfərin münasibətlərə böyük töhfə verəcəyini vurğulayaraq hökumətlərarası əməkdaşlığın yeni inkişaf mərhələsində olduğunu diqqətə çatdırdı. Bu isə işçi qruplarının daha fəal olmasını şərtləndirir: "Ölkələrimiz bütün beynəlxalq təşkilatlarda həm ərazi bütövlüyü, həm iqtisadi, ticari, turizm məsələlərində bir-birini dəstəkləyir. Biz də anlayırıq ki, dostluğumuzu, sıx əlaqələrimizi gözü götürməyənlər var. Gürcüstan və Azərbaycan arasında elə bir məsələ yoxdur ki, müzakirə edib müsbət nəticə əldə olunmasın".

Zviad Dzidziquri qeyd edib ki, Azərbaycanın güclü lideri, qətiyyətli Prezidenti var: "Biz Prezident İlham Əliyevə böyük hörmətlə yanaşırıq. 2018-ci ildə keçirilən prezident seçkilərində müşahidəçi kimi iştirak etmişdik. Seçkilər şəffaf, ədalətli və dinc-stabil şəkildə keçirildi. Seçkinin nəticəsi də xalqın inamının ifadəsi idi".

Sonra görüşdə işçi qrupunun üzvləri Qənirə Paşayeva, Rasim Musabəyov, Flora Qasımova çıxış edərək tarixi əlaqələrdən, mövcud münasibətlərdən söz açıblar. Bildirilib ki, Azərbaycan-Gürcüstan münasibətləri hər zaman inkişafdadır və iki xalq arasında nifaq salmaq istəyənlərin niyyətləri baş tutmayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.- 9 may.- S.14.